

## BƏXTİYAR ABBAS İNTİZAR

### DƏRMAN
*(müxəmməs)*

Dərdlərimiz coxalıbdı, möhtacıq yaman dərmana,
Başımızı aldadıblar, bağlıyıq, aman dərmana.
Azara urcah olanda pul gedir kalan dərmana,
Sırıyıblar şirin canı bu həkim-loğman dərmana,
Hamısı işə yaramır, yanırıq qalan dərmana.

Analizlər də bahadır, həkim qoyur on diaqnoz,
Resepti gillədir nə var yekə-yekə, palaz-palaz,
Firma dərmanın qiyməti daha demə, ələ gəlməz,
Sonra gedirik aptekə biz kasıb, yazıq, beymuraz,
Tıxlanırıq tərkibi yox, zay olan yalan dərmana.

Elə bil ki, hamı gəzir cəhənnəmin qırağında,
Könüllü gedib oynayır Əzrailin qılığında,
Bir duran görmədim ruhun, canın bir gün sağlığında,
A Bəxtiyar, kim dedi ki, İntizarın bu çağında
Aldanıb yalan sevdaya ağıldan bulan dərmana.

### OYNAYIR
*(Müxəmməs-həcv)*

Bizdən törəyən bu gədə qayıdıb bizlə oynayır,
Özünü yola salmışam, oğulla, qızla oynayır.
Süpürgə alıb əlinə, elə bil sazla oynayır,
İtirib hər cür özünü, əyriylə, düzlə oynayır,
Etdiklərini bilməyir, çörəklə, duzla oynayır.

Püflədiyi zurnasına oxşarından dəm istəyir,
İstəməyib bircə xeyir, acı gəzir, qəm istəyir,
Artırıbdı qeybətini, coxaldaraq cəm istəyir,
Bulaşdığı zəqqumlardan dostlarına yem istəyir,
Nəfsinə yiyə durmayır, axmaq mız-mızla oynayır.

Aşıb-daşır hikkələri, qibtələri çox amansız,
Dəyər bilmir, sevgi bilmir, Allah tanımır imamsız,
Yoxdu dilində bismillah, olubdu kafir, Quransız,
Oğrun-oğrun daş atmaqdan yorulmayır da imansız,
Düşünməyir qotur keçi dəli öküzlə oynayır.

Adını da şair qoyub, dəyşik salıb alətləri,
Yerə-göyə sığmır bunun günahları, qələtləri,
Ayaqlayır əldə olan, dildə olan adətləri,
Geyinibdi allı sifət boyununa bidətləri,
Əlində guya qələmdi, gör necə bizlə oynayır.

Çox dedim ki, Bəxtiyaram, səbrim böyükdü dağlardan,
Çox uzaqdım, aralandım şərdən, böhtandan, ağlardan,
Fərqi düzgün tuta bildim yaralardan və sağlardan
Mənim ruhum qida alır eşqlə yaşayan çağlardan,
İndi görərsiniz külbaş nə haqla sözlə oynayır.

### GÜVƏNLİK

Şükr eyləyib bircə loxma etdiyim,
Halal payım yavanlıqdı, yavanlıq.
Səhər çağı ibadətin sonluğu,
Qocalıqda cavanlıqdı, cavanlıq.

Çoxdan başı qarışmalı dünyanın,
Çoxalıbdı qırışmalı dünyanın.
Əynimdəki qırış malı dünyanın
Miras qalan kəfənlikdi, kəfənlik.

Baş qoşduqca hər düdüyə, axmağa,
Oturmayır barmaqlarım çaxmağa.
Qaranlıqdan işıqlığa çıxmağa
Bircə yol var-güvənlikdi, güvənlik.

Çıxış sanma Bəxtiyarı danmağı,
Nə fərqi var üşüməyi, donmağı.
Başımıza yağış-suyun dammağı,
Dəlmə-deşik tavanlıqdı, tavanlıq.

## MİNİ

-Sən bu "gözəlliyə" bir bax,
Həcixanım mini geyib.
-Təzə hoqqa deyil, qağa,
Yüzü minib, mini geyib.

Məşədi də deyir qısa,
Sözü tutur qısa, qısa.
Məhləmizdə ətək qısa
Yüzü geyib, mini geyib.

## TAPA BİLMİRƏM

Ömürdə dərd düzüm-düzüm,
Naxışı tapa bilmirəm.
Bütün göylər görür məni,
Baxışı tapa bilmirəm.
Zülmət udubsa işığı,
İstər yüyür, istər şığı,
Gedirəm üzü aşağı,
Yoxuşu tapa bilmirəm.
Yoluma bu küçə düşüb,
Bir qaranlıq gecə düşüb,
Hamı köçhaköçə düşüb,
Yığışı tapa bilmirəm.
Öz odumda yanmaq üçün,
Arzudan aslanmaq üçün,
Özümdə islanmaq üçün,
Yağışı tapa bilmirəm.
Duz tapılmır çörəyimdə,
Bəxtiyarlıq gərəyimdə.
Azmışam öz ürəyimdə,
Çıxışı tapa bilmirəm

## HƏSRƏT MƏLƏYİ

Bütün şeirlərim həsrət mələyi,
Toya yaraşmayır tost seçimində.
Olub qəribliyim vida diləyi,
Keçir ürəklərdən dost biçimində.
Sözümün əyninə bəylik kostyum
Hələ biçilməyib dərzi əlində.
Hər sətrim istəyi göylərdən umur,
Hələ də qalıbdı ərzi əlində.
Yalançı pafosla mikrofonlara
Üfürən olmayıb bu duzlu dilim.
Hələ düşməmişəm saxta fonlara,
Yalan bir kəlməni yazmayıb əlim.
Bütün şeirlərim həsrət mələyi,
Hələ də üz vermir yazılmışlara.
Mənim arzularım hələ mələyir,
Oxşamır keflənən sozalmışlara.

## BEHİŞT GÜLÜ

Dünən mağazadan aldığm gülün
İyi oxşayırdı xlora, yoda.
Məndən gül istəyən, qurusun dilin,
Niyə ürəyimə saldın dərd, qada.
Güllər ağuşunda, çəmən içində,
Dağların qoynunda boya çatmışam.
Uşaqlıq adında ömür köçümdə
Baldırğan dibində kalan yatmışam.
Sivri qayalara dirmaşanda mən,
Əllərim, üzlərim xınalanıbdı.
Diz qoyub doyunca su içən zaman,
Ülkər lal bulaqlar sonalanıbdı.
...Ay dilin qurusun, ay gül istəyən,
Dünyanı başıma tərsə çevirdin.
Duya bilməyirəm axı sən nədən,
Behişt qucağında gül istəyirdin.

## "MANSIRI"

Hər yan sükunətdi, yoxdu bir səmir,
"Mansırı" oxunur qulağımda, vay.
Ayıq gözlərimdə dolaşır çimir,
O, hansı Qəribdi salıbdı haray.

Əlimi üzümə vururam, mənəm,
Yuxulu deyiləm, ayığam, vallah.
Nə darda bir yetim qoyub gələnəm,
Nə də peymanımdan qaçmışam, Allah.

Qeybdən gələn alov məni bürüyür,
Hayqırtı qoparır; "ay öymü yıxan".
Ruhumu əlimdən alıb sürüyür,
Təkəm İbrahim tək atəşdən baxan.

## DAMARIMDAN

İntihar şerimin baxım üzünə,
Asılıb ürəkdə şah damarımdan.
Könlü açılmayan, üzü gülməyən,
Fəryad qapısında ah damarımdan.

Deməyin ömrümü verdim yellərə,
Pərdəyə düşmədim, döndüm güllərə,
Aşıq da mizrabı vurur tellərə,
Dönüb inildədir gah damarımdan.

Bəxtiyar, ayağım üzülür tez-tez,
Nə bir duyan olur, nə də görür göz.
Yenə də içimdə süzəllənir söz,
Yetişir göylərə bağ damarımdan.

## AŞDANDI

*(təcnis)*

Nisgil artdı, qəhər yaşım qurudu,
Gözlər küsüb ağlamadı, yaş dandı.
Can ağrısı, bel büküsü çoxaldı,
Həkim deyir qorxmaynan, yaşdandı.

Civildəyən çobanquşu, sərçəmi?
Dərd deyirsə bağrım üstə sər-çəmi
Görüb gəldim Savalanı, Sərçəmi,
İqbalımı qirov vurdu, yaşdandı.

Bir ürəyə güvən yoxsa, tut ha tut,
Məlhəm olmur alma, gilas, tut, ha tut.
Əməlinin qayəsidi tuthatut,
Gözəl Fələk, Bəxtiyar da yaşlandı.

## GÖZƏLLİKLƏR

Hər dərdi adladım üstdən,
Qəmlə sevinc yarılaşdı.
Serial gördüyüm yuxu,
İndi dönüb qarılaşdı.

Ömrüm keçdi başqa cürə,
Qayıtmaram köhnə yerə,
Böyüdüyüm o dağ-dərə
İstəyimdə sarılaşdı.

Dəyişdi zaman tələbi,
Hər fürsət düşmür ələ bir.
Bütün bataqlıq elə bil,
Uğurumda qurulaşdı.

...Var-quvvəmi gərib gəldim,
Tənha qalıb qərib gəldim.
Gözəlliklər görüb gəldim,
Yuxularım durulaşdı.

## QOL QOYMARAM

Etdiyiniz günahlara,
Fitnələrə əl qoymaram.
Dediyiniz yalanlara,
Yamanlara dil qoymaram.

Niyə kordu eşq gözünüz,
Quruyub xeyir sözünüz,
Gora bürünüb üzünüz,
Qara üstdən tül qoymaram.

Məni Xaliq yüz yol sınar,
Bütün yollar məndə sınar.
Özümdən çıxmaram kənar,
Atəşlərə yol qoymaram.

Sən ey mömin, dur içində,
Axirəti qur içində.
Pir gözəldi nur içində,
Büt önünə gül qoymaram.

Qoy mən yanım öz odumla,
Mərifətdən söz dadımla.
Bəxtiyaram düz adımla,
Başqa adla qol qoymaram.

BİR ÖZÜMƏM
Təklik ilə baş-başayam,
Bircə mənəm, bir özüməm.
İstəmirəm ki, qayıdam,
Geri dönəm bir özümə.
Nə gözəldi bu aləmim,
Hava, torpaq, su aləmim.
Qonaq edib ruh aləmim,
Huri Sənəm, bir özüməm.
Getdiyim yol ocaq izi,
Tez itirər qaçaq izi.
Ürəyimin sönməz közü,
Odlu sinəm, bir özüməm.

## AY AĞAM, GƏL

*(Cəmkərandakı halım üçün)*

Biz ac-yalavac sənə möhtac, ay Ağam, gəl,
Təkcə ehtiyac sənə möhtac, ay Ağam, gəl.

Sənçün yetimik, biz əsirik, intizarıq,
Bizə qucaq aç, sənə möhtac, ay Ağam, gəl.

Həsrətdir sənə qulağımız, gözlərimiz,
Kiprik, qaş, baş, saç sənə möhtac, ay Ağam, gəl.

Sənsiz Allaha çatmır namaz, olmur oruc
Başımıza tac, sənə möhtac, ay Ağam, gəl.

Hə, qarnı yoxuq, abır-həya olur talan,
İmanımız ac, sənə möhtac, ay Ağam, gəl.

Sərvətlərimiz yad əllərdə, hər cür idxal,
Hər cürə ixrac sənə möhtac, ay Ağam, gəl.

Hesab-kitablar pozulubdu, vurma, qüvvət,
Kəsirdə məxrəc sənə möhtac, ay Ağam, gəl.

Bəxtiyarın da ürək sözü yığın-yığı?,
Həm qulac-qulac sənə möhtac, ay Ağam, gəl.

## *XARABA*

Bu bazarın adı "Vasmoy"du,
burada olur həmişə basabas,
bir sıranı o başa çıxınca
sürtülür üzün,
xeyri yoxdu özünü yüz sıx,
bir də gördün bir inək
qoşa əmcəkləriylə
kürəyində çəkdi cinas,
sonra da kimin nə bilim
nəyi nə bilim nə...
...tfu, mən də ki həssas.
...sən də ki, ay alverçi,
dayan bir qulaq as,
soxuşdurma malını,
qoy bir görüm malının
qabağını, dalını.
...sən də ey soğansatan,
al bunu tərəzidən as,
bütün tərəzilər də uzadı
bizlərdən beşcə qulac,
Allah bilir nə çəkir.
Qarışıbdı burada bir-birinə
halallarla haramlar.
Bu bazarın adı "Vasmoy"du,
bu tərəfi də yanıb
xaraba qalmış Diqlas.
Kimsə kimdən
almaq istəmiş qisas...
...tfu, yenə lənət şeytana.
Eh, ortaya qoyulub
çox böyük bir tas,
hamımız düşürük ona,
dolmayır ki, dolmur,
yanıb olur axırda xaraba.
Bu yandan da araba
dirəşibdi qıçıma:
-Yol verin, yol verin...

## *BAYATILAR*

Dərd-azar şakər oldu,
Qəm-qüssə bekar oldu.
Bu millət şirinləşdi,
Hamısı şəkər oldu.
***
Mən aşığam elədən,
Götürməynən ələ dən.
Kaş biləydik başlara
Kimlərdi dərd elədən.
***
Bizimki bazar oldu,
Bizlərə nəzər oldu.
Dözümlüyük, a qardaş,
Dərd bizdən bezar oldu.
***
Dərdi vermə sələmə,
Dərddən olmaz dələmə,
Bu yaralı ürəyi
Bağlayaram ələmə.
***
Bağlanmadı kəməri,
Verilmədi nəməri.
Neynirdik biz, İlahi,
Bəd qadını, kəm əri.
***
Əlimi yora əllər,
Qoy getsin gora əllər.
Qəpik-quruşdan ötrü
Düşübdü tora əllər

## *HALLARIM*

Deyirəm özümü hallandırım bir,
adım itbat olub, bilmirəm kiməm,
heç yiyə duranım da yoxdur,
nə yönləndirən təşkilatım var,
nə bunlardan təsirlənə bilirəm,
bölünüb "yerli-yerli" oynayırıq,
və bu hallarımdan
çıxışlıq görünmür...